UOT 78.03
https://doi.org/10.59849/2311-8482.2024.3.186

**NƏRGİZ ƏLİYEVA***

# TÜRKƏR QASIMZADƏNİN YARADICILIĞINDA MÜASİR İFA TEXNİKALARI: FƏLSƏFİ VƏ MUSİQİLİ İFA YOLLARI

*Azərbaycan gənc bəstəkarı Türkər Qasımzadənin yaradıcılığına həsr olunmuş bu məqalə, eyni zamanda onun "Solo for Erin Lesser" və "Control + [" əsərlərində taxta nəfəs alətlərinin partiyalarını araşdıraraq, ifaçılıq texnikalarını təhlil edir.*

***Açar sözlər:*** Türkər Qasımzadə, taxta nəfəs alətləri, təhlil, ifaçılıq texnikalar

## Giriş

Müasir Azərbaycan musiqisinin parlaq nümayəndələrindən biri gənc bəstəkar Türkər Qasımzadənin yaradıcılığı uzun müddətdir ki, sənətsevərlərin diqqət mərkəzindədir. T.Qasımzadə bəstəkarlıq üzrə musiqi təhsilini Bakı Musiqi Akademiyasında professor Xəyyam Mirzəzadənin, İsmayıl Hacıbəyovun, Aydın Əzimovun sinfində almışdır. Öz sənətini peşəkar səviyyədə inkişaf etdirmək üçün Amerika Birləşmiş Ştatlarına üz tutmuş, ölkənin ən tanınmış musiqi təhsili ocaqlarından biri olan Manhetten Konservatoriyasına daxil olmuşdur. Magistr dərəcəsinə T. Qasımzadə 2009-2011-ci illərdə Heydər Əliyev Fondu və Təhsil Nazirliyinin dəstəyi ilə Nyu Yorkun Manhetten Konservatoriyasında yiyələnmiş, həmin universitetdə bəstəkarlar Reiko Fueting və Nils Vigelanddan dərslər almışdır.

## Əsas təhlil

T.Qasımzadə öz ixtisası üzrə doktorluq dərəcəsi almaq üçün Sinsinnati Universitetində təhsil almışdır. Bu universitetdə o, bəstəkarlar Prof. Mara Helmuth və Michael Fiday'in sinfində təhsil almışdır. O, həmçinin Beat Furrer, Mark Andre, Stevan Tickmayer, Gabriela Lena Frank kimi dünya şöhrətli bəstəkarlardan ustad dərsləri almışdır. Türkər Qasımzadə 2012-ci ildə ABŞ-ın Boston şəhərində keçirilən ALEAİİİ beynəlxalq bəstəkarlıq müsabiqəsinin finalisti, 2010-cu ildə Avstraliyanın Melburn şəhərində keçirilən "Fəzada Davamlılığın Nadir Formaları" beynəlxalq müsabiqəsinin qalibi, 2009-cu ildə Nyu-Yorkda keçirilən "Jordan Berk Memorial Prize"ın və s. digər beynəlxalq müsabiqələrin qalibidir. Əsərlərinin ifa olunduğu bir çox beynəlxalq festivallar içində 2014 Etchings (Fransa), Cortona Sessions for New Music (Italiya), "tonArt 2014" (Almaniya), "Up Close With Music" Festival (Irlandiya), "Computer Music Space" (Bolqarıstan), Tonlagen 2012 (Almaniya), 4-cü Qara Qarayev adına Müasir Musiqi Festivalı (Azərbaycan), Druskomanija 2010 (Litva), Culturescapes 2009 (Isveçrə) də yer alır.

Bəstəkarın əsərləri ECCE Ensemble (Fransa), Ensemble Courage (Almaniya), Ensemle Sans Maitre (Nyu York, ABŞ), CME Ensemble (Boston, ABŞ), Frontiers Ensemble (Oklahoma, ABŞ), CNM Ensemble (Ayova, ABŞ), Noise-Bridge duo (Ştutqart, Almaniya), Cochlea Freedom Ensemble (Nyu York, ABŞ), Cafe Momus (Sinsinnati, ABŞ), Oneplusone Ensemble (Litva) və s. müasir musiqi ansamblları tərəfindən ifa olunmuş, müəllif David Gilbert, Theodore Antoniou, Bert van Herck, Jean-Philippe Wurtz kimi dünya şöhrətli dirijorlarla əsərlərinin ifasında əməkdaşlıq etmişdir.

Həmin təhsil ocağında "Elektron musiqi" və "Yaxın Şərq musiqisi" fənlərindən dərs deyən gənc bəstəkar musiqi ictimaiyyəti tərəfindən istedadlı sənətkar, müasir üslubda peşəkar səviyyədə yazılmış maraqlı əsərlərin müəllifi kimi tanınır. Hal hazırda Küveytdəki Orta Şərqin Amerikan Universitetində və ABŞ-ın Sinsinnati Universitetində müəllimlik fəaliyyəti ilə məşğul olan T.Qasımzadənin əsərləri Parisdə yerləşən Babel Scores tərəfindən nəşr olunmaqdadır.

Türkər Qasımzadənin bəstələdiyi əsərlər müxtəlif janrları əhatə edir və müasir musiqinin inkişafına öz töhfəsini verir. Onun əsərləri arasında simfonik, kamera musiqisi, vokal əsərlər və instrümantal kompozisiyalar yer alır.Onun yaradıcılığı bir neçə tematik istiqamətdə və müxtəlif ifadə vasitələri ilə bölmək olar:

*Simfonik Musiqi:* T.Qasımzadənin simfoniyaları, adətən, milli motivləri müasir musiqi texnikaları ilə birləşdirir.Yaradıcılığında ən önəmli simfonialarından biri 1 və 2 simfonialarıdı. 1-ci simfoniya

milli musiqi motivləri üzərində qurulsa belə müasir texnikaları ilə bir biri ilə vəhtət tapır. 2-ci simfoniya daha kompleks struktura malikdi ve üstünlük melodik xəttin dərindən dinləyiciyə təqdim olunması ilə yadda qalır.

*Konsertlər:* Müxtəlif alətlər üçün konsertlər yazmışdır, Məsələn, fortepiano,fleyta, klarnet və digər musiqi alətləri üçün. Konsertlırin ifası üçün ifaçı ifa gücünü ve texniki imkanlarını ön plana çıxardır.

*Kamera Musiqisi:* Kvartetlər. Bəstəkar simli kvartet janrına da müraciət edin. Bu əsər, musiqinin xətləri,ritmik cəhətdən zənginliyi, ilə seçilir.Bəstəkar bu əsərdə fərqlə tembr və harmonik yeniliklərlə həm Azərbaycan ənənələrini müasirliklə əks etdirir.

Həmçinin Fleyta,klarnet,piani,viola üçün yazılmış kvartet fərqli alətlərin harmoniyasında ,səs tembri ilə bir biri ilə uzlaşır. Bəstəkarın musiqi üslubu, adətən, melodik və ritmik xarakteristikalarla zəngindir. O, öz əsərlərində müxtəlif musiqi alətlərinin səslərini birləşdirərək, dinləyici üçün maraqlı və yeni bir təcrübə təqdim edir. Eyni zamanda, bu əsərlərdə milli musiqi elementlərini, eləcə də müasir kompozisiya texnikalarını bir araya gətirir.

*Fortepiano üçün əsərlər:* Fortepianp üçün Sonata.Klassik formada müasir yanaşma və texnika ilə yazılmışdır.Melodik və ritmik baxımından zəngin strukturla seçilir.Sonata geniş dinamik diapazonu əhatə edir və fortepiano üçün yeni səs rənhlərini açır.Əsər texniki cəhətdən mürəkkəb, həm dəemosional zənginlik baxımından dərin ifadə imknlarını təqdim edir.

Həmçinin Fortepiano üçün Prelüdlər,müxtəlif Etüdlər,Danza və s əsərlərinin müəllifidir.

*Vokal Musiqi:* Solo vokal üçün yazılmış əsərlər.Bunlara "Qəlbimdə sən", "Gözlərin" və s.

*Koro əsərləri.* Bu əsərlər bir neçə səs partiyasından ibarət olan musiqi parçalarıdır.Bu partiyalar insan səsi ilə ifa edilir.Bəstəkar koro musiqisində müxtəlif janrları üslubları birləşdirərək,dinamik və melodik dərinlik yaradan əsərlər yazmışdır.Əsərlərdə müasir elementlər və ənənəvi melodiya arasında sintez yaradıb. Belə əsərlərə "Şairin Dili", "Xəyal" misal göstərmək olar.Bu əsərlərin musiqi xətti milli və folklor motivlərinə əsaslanaraq yazılmış həmçinin müasir musiqi formalarını əhatə edir.

T.Qasımzadənin taxta nəfəsli alətlər üçün əsərləri mövcuddur. Bu sırada təhlilə cəlb etdiyimiz solo fleyta üçün "Solo for Erin Lesser" və fleyta və 4 ifaçı üçün "Control + [" əsərləri də yer almışdır.

"Solo for Erin Lesser" əsəri 2011-ci ildə yazılmışdır. Əsər məşhur fleyta ifaçısı Erin Lesserə (Amerika, Nyu-York) həsr olunmuş, ilk ifa da onun təqdimatında baş tutmuşdur. Əsər solo fleyta üçün nəzərdə tutulmuşdur.

Bəstəkar əsərin girişində verdiyi məlumat bölməsində bu musiqini "Mürəkkəbin suda həll olması" adlandırmışdır. Burada mürəkkəbin suda həll olması müxtəlif dinamik boyalar vasitəsilə təsvir olunur. Sonda mürəkkəb və su vahid tərkibə çevrilir. Bu proses böyük fars filosofu Cəlaləddin Ruminin "Qəm yemə, itirdiyin her sey başqa şəkildə yenidən qarşına çıxacaq" kəlamı ilə fəlsəfi məna kəsb etmiş və kompozisiyanın əsas ideya xəttini təşkil etmişdir. İlk baxışdan fleytanın çıxışında daha çox hərəkətlilik müşahidə olunur. Bəstəkar alətin registr boyalarından və dinamik kontrastlardan geniş istifadə etmişdir. Fəallıq bir müddət davam edir və onu mürəkkəbin suya düşərkən rəng və həcm dəyişdirməsi ilə əlaqələndirmək olar. Bir müddətdən sonra fəalllıq azalır və passivləşmə müşahidə olunur. Sona yaxın bəstəkar müxtəlif intervalları ön plana çıxarmaqla mürəkkəblə suyun vahid tərkibə çevrilməsini təsvir etməyə çalışır. Vahidlik həm də emosional sakitliklə müşayiət olunur, səs *ppp* qədər azalır. Lakin bu sakitlik ilk motivin bir müddət *fffff* nüansında təkrarlanması ilə pozulur. Kompozisiyanı tamamlayan "c" səsi isə simvolik xarakter daşıyır və sanki təbiətdə baş verən bütün proseslərin sonda bu və ya başqa halda yenidən təbiətə qayıtdığı kimi qavranılır. Son element əsərə həm də simmetriklik gətirmişdir ki, bu da onun fəlsəfi ideyası ilə birbaşa bağlıdır.

Bəstəkar kiçik miniatürdə müasir fleyta ifaçısına alətin bədii və texniki imkanlarını və fərdi ifaçılıq qabiliyyətini nümayiş etdirmək üçün geniş şərait yaratmışdır. Əsərin əsas obrazı fleyta alətinin ifasında mümkün ola biləcək bütün tembr və dinamik boyaların vasitəsilə tərənnüm olunmuşdur.

Türkər Qasımzadənin 2014-cü ildə yazılmış Control +[ əsəri fleyta və 3 alət və səs üçün nəzərdə tutulmuşdur: fleyta, zərb alətləri, skripka, violonçel və messo-soprano. Əsərin adı kompüter düymələrinin funksiyaları ilə bağlıdır. Klaviaturada bu düymələrin ardıcıl istifadəsi zamanı eyni prosesin baş verməsi və *escape* vasitəsilə bu vəziyyətin dəyişməsi nəzərdə tutulur.

Nümunə 1



Əsərdə “qaya”, “dalğa”, “dəniz”, “sahil”, “axşam”, “sakit” kod sözləri əsərin emosional ruhunu özündə daşıyır. Kod sözləri əsərdə axşam vaxtı sakit dalğaları qayalara toxunan dəniz sahili mənzərəsi təsvir olunduğunu deməyə əsas verir. Əsər haqqında informasiya verən bəstəkar XX əsrin görkəmli bəstəkarı Artur Şopenhauerin fikrini komozisiyanın fəlsəfi ideyası kimi təqdim etmişdir. “Musiqi həyatın və hadisələrin özünü deyil, mahiyyətini ifadə edir”.[5] Kod sözlər, escape düyməsinin funksiyası, sitat-bütün bunlar əsərin fəlsəfi ideyasının əsasını təşkil edən çıxış, tərk etmə hissini təcəssüm etdirir.

Nümunə 2




Kompozisiyanın təşkilində bütün tərkib aktiv iştirak edir, fleytanın solo mövqeyi bir o qədər də hiss olunmur. Belə demək olar ki, sadalanan kod sözləri ansamblın üzvlərini xarakterizə edir. Bu baxımdan ansamblın digər üzvlərinə nisbətən fleytanın partiyası daha hərəkətlidir. Bəstəkar obraz-emosional aləmin gerçəkləşməsində yenə də dinamik və tembr kontrastlığından geniş istifadə edir.

Əsərin ifaçılıq məsələsinə gəlincə bir sıra müasir əsərlərdə olduğu kimi, burada da müəllif notun əvvəlində əsərdə yer alan bütün ştrixlərin hansı üsulla, necə ifa olunmasını göstərmişdir. İfaçıya isə bu göstərişlərə əməl etməsi tövsiyə oluna bilər.

“Solo for Erin Lesser” əsərində isə bəstəkar əsasən “slap”lərdən, üfürmələrdən, qlissandolardan istifadə etmişdir. Slap müasir əsərlərdə ən çox istifadə edilən ifa üsuludur. Bu üsuldan ilk dəfə Fransız bəstəkarları K.Debüssi və Edqar Varez öz əsərlərində istifadə etmişlər.[6] Slap iki növdə

olur: dil və dodaq vasitəsilə həyata keçirilir. Dil vasitəsilə onu həyata keçirmək daha rahat olsa da, bu ifaçının seçimindən asılıdır. Bundan başqa bağlı və açıq slap-lər mövcuddur. Bəzi yerlərdə multifon səslənməyə (iki və daha artıq səsin birlikdə səslənməsi) də yer verilir. Bu ifanı düzgün yerinə yetirmək üçün isə ifaçıdan xüsusi hazırlıq tələb olunur.

**Nəticə**

Bəstəkarlar kontrastlıq yaratmaq üçün müxtəlif vasitələrdən istifadə etmişdir. T.Qasımzadənin miniatürlərində alətin akustik və tembr imkanlarından, eləvə də dinamik kontrastlıqdan istifadə etməklə əldə olunur. Miniatürlərində kontrastlıq ilk növbədə obraz-emosional aləmin rəngarəngliyində büruzə verir, lirizm və skersoluq, dərin düşüncə və yüngül romantik əhval-ruhiyyə bir əsər daxilində bir-birini əvəz edir. Bu da ifaçıya bədii ifaçılıq məharətini göstərməyə geniş imkan yaradır. Əsərlərin praktik mahiyyətinə gəlincə, hər bir əsərdə ifaçı üçün yeni sərhədləri kəşf etmək üçün nüanslar yer alır. Burada ifaçıdan həm texniki hazırlıq, həm bədii ifadəlilik, həm də alətin texniki, akustik, tembr imkanlarını mükəmməl şəkildə mənimsəməsi tələb olunur. Bir sıra əsərlədə müəyyən ifaçılıq üsulları əvvəldə bəstəkar tərəfindən məxsusi olaraq qeyd olunur. Bu hal xüsusilə son illərdə yaranan əsərlərə şamil oluna bilər. Bu da, gənc ifaçılara müasir əsərlərin ifa olunmasında xüsusilə kömək edir. Müasir bəstəkarlıq texnikasının daim yenilənmək istiqamətində inkişaf etməsi öz təsirini ifaçılıq sənətinə göstərir, yeni ifa üsulları, ştrixlər, nünaslar meydana gəlir. Bu üsulların ifa tərzi əsərlərin ifası ilə formalaşır. Bu baxımdan notun üzərində həmin üsul və ştrixlərin hansı şəkildə ifası ilə bağlı metodik göstərişlər olduqca mühümdür.

## ƏDƏBİYYAT


1. Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti / Ə.B.Bədəlbəyli. – Bakı: Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, – 2017. – 511 s.
2. Dadaşzadə, Z.A. Simfoniyanın fəzası / Z.A.Dadaşzadə. – Bakı: Elm, – 1999. – 200 s.
3. Əliyeva F.Ş. Azərbaycan musiqisində üslub axtarışları.B.: Elm, 1996, 118 s.
4. Денисов Э.И. Современная музыка и проблемы эволюции композиторской техники. М: Сов.композитор, 1986, 227 с.
5. Нестьев И.В. Аспекты музыкального новаторства. Проблемы традиции и новаторства в современной музыке, Москва, Сов.композитор, 1981,232 с.
6. Теория современной композиции. М.: Музыка, 2007, 617 с.



***Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
***E-mail:fleytistka1991@mail.ru***

**NargizAliyeva**


**MODERN PERFORMANCE TECHNIQUES IN TURKAR QASIMZADE'S WORKS: PHILOSOPHICAL AND MUSICAL APPROACHES TO PERFORMANCE**


This article is dedicated to the work of the young Azerbaijani composer Turkar Qasımzade, as well as the analysis of the woodwind parts in his pieces "Solo for Erin Lesser" and "Control + [," with a focus on performance techniques.



**Keywords**: *Turkar Qasımzade, woodwind instruments, analysis, performance techniques*

**Наргиз Алиева**

**СОВРЕМЕННЫЕ ИСПОЛНИТЕЛЬСКИЕ ТЕХНИКИ В ТВОРЧЕСТВЕ ТЮРКЕРА ГАСЫМЗАДЕ: ФИЛОСОФСКИЕ И МУЗЫКАЛЬНЫЕ ПОДХОДЫ К ИСПОЛНЕНИЮ**

Данная статья посвящена творчеству азербайджанского молодого композитора Тюркара Касымзаде, а также анализу партий деревянных духовых инструментов в его произведениях «Solo for Erin Lesser» и «Control + [«, с акцентом на исполнительские техники.

**Ключевые слова:** *Тюркар Касымзаде, деревянные духовые инструменты, анализ, исполнительские техники*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 18.10.2024**
**Son daxilolma tarixi:08.11.2024**